OĞUZ ATAY

# TƏHLÜKƏLİ tamaşalar

Tərcüməçi:
Hədiyyə Şəfaqət

qanun nəşriyyatı

OĞUZ ATAY

# TEHLİKELİ oyunlar

“Təhlükəli tamaşalar” Oğuz Atayın ikinci əsəri olmaqla yanaşı, türk ədəbiyyatında postmodernizmin ilk nümunəsi hesab olunur. Yuxu ilə reallığın qarışması və metafantaziyanın bədii ədəbiyyatın əsas prinsipi olması bu əsəri postmodernist roman kateqoriyasına daxil edir. İnsanın özü ilə mübarizə aparıb məğlub etməsini, özünü dəyişdirməsini həyati məsələ kimi çatdırmağa çalışan heyrətamiz və sarsıdıcı romanın baş qəhrəmanı Hikmət Benol cəmiyyətdəki gərgin təlatümlərin altında yatan reallığı araşdırarkən, həqiqətlə səmimi davranmağın cəmiyyəti idarə edənlər tərəfindən təhlükəli göründüyünü hiss edir. Özünə xəyanət etmədən yaşamaq yollarını axtaranda isə “tamaşa göstərmək”, “qrimlənmək”, “rola girmək” texnikasına əl atır, bəzən hadisələri sürreal və ya qeyri-real hadisə kimi təsvir edir. Sonra həqiqət çatdırılır. Bəzən əvvəlcə həqiqət çatdırılır, sonra hadisə onun istədiyi kimi təkrarlanır. Atay ədəbiyyatının fərqləndirici cəhətlərindən biri olan tamaşa motivi bütün roman boyu üstünlüyü özündə saxlayır.

# MÜNDƏRİCAT

Müqəddimə .......... 7

**I FƏSİL**

GECƏQONDU .......... 15
DUL QADIN .......... 38
POLKOVNİK HÜSAMƏDDİN BƏY .......... 75
ÖLKƏMİZ .......... 127
MEYXANA .......... 143
BİLGƏ .......... 162

**II FƏSİL**

SEVGİ VƏ SAİRƏ .......... 199
SƏLİM BƏY .......... 220
ŞAM İŞIĞI .......... 249
İNCİLƏR .......... 276

**III FƏSİL**

TƏNHALIĞIN OYUNCAQLARI .......... 297
İNDİ SƏNİ TUTDUM .......... 341
QORXU .......... 359
BÖYÜK TAMAŞA .......... 407

**IV FƏSİL**

ƏN BÖYÜK XƏZİNƏMİZ AĞLIMIZDIR .......... 445
SON YEMƏK .......... 492
YIXILMA .......... 522
POLKOVNİK GƏLİR .......... 543

# Müqəddimə

*Əziz oxucu!*

Birnəfəsə yazıb bitirmək istədiyim bu müqəddiməyə əlindəki "Təhlükəli tamaşalar"ı oxumağa hazırlaşdığına görə sənə nə qədər həsəd apardığımı deməklə başlamaq istəyirəm. Sənə niyə həsəd aparıram? Sözsüz, həyəcan və sərgüzəştlə bol olan səyahətə bənzəyən bu oxu cəhdi ilə ilk dəfə üzləşdiyinə görə. Bu müqəddiməni birnəfəsə yazıb tamamlamaq istəyimə gəlincə, bunun səbəbini, bəlkə də, sən özün də təxmin edə bilərsən. Oğuz Atayın müqəddimələrdən qəti xoşu gəlməzdi, üstəlik, hər bir müqəddiməni özünəməxsus incəliklə ələ salardı. Lakin bu kitabın XIV fəslində deyildiyi kimi: "Ölkəmiz geniş tamaşa meydanıdır. Hər səhər oyanan kimi bir qədər həvəssiz olsa da, hərəmiz səhnənin bir nöqtəsində bizi əhatələyən böyük və uzaq dünyanın şirin oxşarını qurmağa yığışırıq. Kiçik qruplar şəklində bir-birimizdən asılı olmadan, bir-birimizi seyr edə-edə gündəlik tamaşalarımızı oynamağa başlayırıq. Mən IV Hikmətin vaxtında, yəni I Hikmət olanda bu tamaşaya ciddi yanaşmış və bütün tamaşaları həyəcanla seyr etmişdim. Nəhayət, öz tamaşamı bütün bu tamaşalardan kənarda və real şəkildə həyata keçirmək qərarına gəldim. İnsanlarımız eyni tamaşada illərdir eyni formada oynamağın yorğunluğu və heç cür reallığı əks etdirməməsinin bezginliyi içində olduğu halda mən bu günədək qətiyyən xeyrini görmədiyimiz ağlın, daha doğrusu, ağıl olduğunu zənn etdiyimiz ağıl təqlidinin zəncirlərin-

dən xilas olaraq bütün ölkələri və onların həqiqi vətəndaşlarını əhatələyən böyük həyəcanı içindəyəm".

Fərz edək ki, mən də onun dediyi kimi "Müqəddimə əmi" donuna məhz bu həyəcana ortaq çıxmaq üçün bürünürəm. Özü də insan bircə dəfə tamaşanın sehrinə düşdüsə, səhnəni asanlıqla tərk etmək istəmir. Amma mənimki birbaşa bir rola sahiblənmək arsızlığından irəli gəlmir. Mən olsa-olsa, "Təhlükəli tamaşalar"ın əhəmiyyətli hesab etdiyim bir neçə xüsusiyyətinin üzərində dayanmaq istəyirəm. Bunlardan ən vacibi yazıçının iradə azadlığını təmin edən "tamaşada oynamaq" üsuludur. Daha doğrusu, yazıçının "insanların oynadıqları tamaşalar" adını verdiyi hissələrdir. Pyes içində pyesdən, roman içində pyesdən və ya romandaxili fərqli təhkiyə formalarından vasitə kimi istifadə edilməsinə bundan əvvəl də rast gəlmişik. Lakin Oğuz Atayın əsərlərində bu üsuldan ona qədərki dövrdə ədəbiyyatımızda görünməmiş sənətkarlıq və zənginliklə istifadə edilməsi danılmazdır.

Oğuz Atay "Təhlükəli tamaşalar"ı 1973-cü il mart ayının 26-da yazıb bitirib. *"Tutunamayanlar"*ın 1970-ci ilin 26 iyulunda yazılıb tamamlandığını nəzərə alsaq, ikinci romanın tərtibatı və yazılması üç il müddətinə başa gəlib. Yazıçının ilk romanını bitirdikdən sonra yazmağa başladığı gündəlikdəki qeydlərinə əsasən, "Təhlükəli tamaşalar" hadisələr toru, xarakterləri, haqqında danışılan mühit, bəhs edilən məsələlər və bunların ifadəsi üçün istifadə olunmuş təhkiyə texnikası baxımından üzərində uzun müddət düşünülmüş, roman son formaya düşənədək bir neçə dəfə yazılmış, bədii həssaslığı və detalların vasvasılıqla seçimi asanlıqla hiss olunan ciddi işin nəticəsidir. Oğuz Atayın "düşünən insan"ı nə tam şəkildə üzvü ola bildiyi, nə də tamamilə qopa bildiyi cəmiyyətdə ömür sürür. Bu cəmiyyət köhnə-yeni, Şərq-Qərb, xə-

yal-həqiqət, hiss-düşüncə, kişi-qadın kimi qarşıdurmalardan qaynaqlanan ciddi təlatümlərin içindədir. Bu cəmiyyətdəki insanların həyat tərzi, hissləri və düşüncələri qeyd etdiyim təlatümləri yaradan saysız-hesabsız detallarla şərtlənir. Romanın qəhrəmanı Hikmət Bənol təlatümün altında yatan reallığı araşdırarkən davamlı olaraq ipucu hesab etdiyi bu detallara qapılır. Düşünən insan kimi gerçəkliyə varmağın təhlükəli yol olduğunu görür. Hər şeydən əvvəl həqiqətləri dərindən öyrənmək cəhdinin özü cəmiyyəti idarə edənlər tərəfindən təhlükəli sayıldığına görə Hikmət Bənol gerçəkliklə oyun oynayırmış kimi davranmağı seçir. Beləliklə, Oğuz Atayın “düşünən adam”ı “aktyor”a çevrilir. İnsanın “oynayan varlıq” (Homo Ludens) olması İntibah dövrünün əvvəlindən öz qabiliyyətlərini sınamağın başlanğıc nöqtəsi deyildimi? Şekspir elə buna görə: “Bütün dünya bir səhnədir” deməmişdimi? Məşhur ispan dramaturqu Kalderon da “Həyat bir yuxudur” pyesini yazmamışdımı? Beləcə Oğuz Atay bu müəllifləri təqlid etməklə deyil, reallığı anlamaqla belə baxış bucağının əhəmiyyətini dərk edərək öz təxəyyülünü ortaya qoyur. Tamaşa elementinin əhəmiyyəti beləcə üzə çıxanda gündəliyində izah etdiyi kimi, dramatik forma məsələsini hərtərəfli araşdırır, orta əsrlərin simvolik tamaşa qəhrəmanları da, Şekspirin faciə anlayışı da, Qaragöz və Məddah kimi ənənəvi teatr formalarımız da nümayiş etdirmək istədiyi reallıqların ifadəsində Oğuz Ataya böyük ustalıqla yararlandığı təhkiyə imkanları verir. İstifadə etdiyi bu təhkiyə imkanları bəzi yazıçılardakı kimi formal güc nümayişi şəklində deyil, şahidi olduğu, hətta çox tez-tez yaşadığı qarışıqlığın məcbur etdiyi müxtəliflik və tam funksionallıqla ortaya çıxır. Məhz buna görə də “Təhlükəli oyunlar”da Hamleti, Don Kixotu, Faustu və bir çox başqa pyes və roman qəhrəmanlarını xatırladan parodiyalara qorxmadan yer ve-

rir. Həmçinin məhz bu səbəbdən də ənənəvi türk mahnıları, ibtidai sinif şeirləri, gənc qızların sevdiyi "sentimental eşq romanları", ehtiraslı duyğuları alovlandıran tarixi qəhrəmanlar, şüurumuzun və şüuraltımızın zibilliyini təşkil edən bürokratik söhbətlər Oğuz Atay üçün əvəzsiz ilham qaynağına çevrilir.

Oğuz Atayın romanlarında qəhrəmanların intiharla bitən ömürləri müəllifin təbliğ və ya təklif etdiyi həll yolu kimi qəbul edilməməlidir. Gerçəklik, daha doğrusu, həyat tamaşa kimi təqdim edildiyindən bu intiharları belə bir oyunun məntiqi və formal nəticəsi kimi görmək mənə daha ağlabatan görünür. Üstəlik, Oğuz Atayın roman və pyeslərinin qəhrəmanları vasitəsilə, az qala vəsvəsə kimi təqdim etdiyi ölüm fenomeni onun həyat eşqini qabardan anlayışdır. Qodarın "Sərsəri aşiqlər" (*A Bout de Sufle*) filmində müsahibə verən yazıçı son arzusunun *ölümsüzlük və ölmək* olduğunu bildirir. Oğuz Atayın qəhrəmanları isə sanki ölməklə ölümsüzləşmək istəyirlər. Pirandello "Altı nəfər müəllifini axtarır" adlı pyes yazmışdı. Gerçəkliyin dəyişkənliyini və nisbiliyini vurğulayan bu pyes məndə Oğuz Atayın oxşar problemə toxunarkən oxucularını axtaran yazıçı kimi təsvir oluna biləcəyi fikrini yaradır. "Mən buradayam, əziz oxucu, bəs sən haradasan?", – deyərkən, bəlkə də, bir tərəfdən oxucunun biganəliyindən incikliyini ifadə edir, digər tərəfdən isə kitablarında oxucunu intellektual yaradıcılığa çağırırdı. Buna görə də onun bu kitabları yazmaqla böyük bir səmimiyyət və səxavətlə qarşısıalınmaz həyat eşqini oxucuları ilə bölüşmək istədiyinə inandığım kimi Oğuz Atayı oxumağın yaşamağı mənalandıran şüur və həssaslığın birləşməsinə, bir növ, yaradıcılığa gətirib çıxaracağına da inanıram.

CAVAD ÇAPAN<br>

*1984-cü il, sentyabr*